**29.11.2023: xəbər**

**Students of the School of Economics and Management at an international event within the framework of ERASMUS+ PICASP project**

On October 28-November 3, 2023, with the financial support of the ERASMUS+ PICASP project ( Pilot courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area ), educational training sessions were conducted by the public Association for the study of Cultural Heritage "MIRAS" and the Union of Turkish Associations of Belgium. These sessions covered sports, healthy living, motivation, and included tours to familiarize young participants from Belgium and Azerbaijan with the respective countries.

Notably, students from Khazar University's School of Economics and Management, namely Shahin Aliyev, Farid Babayev, Ziya Alizadeh, Jalal Yagub, and Chingiz Aghayev, actively engaged in this training.

On October 29, young people representing both countries celebrated the 100th anniversary of the Republic of Türkiye and performed the national anthem together. The festive atmosphere persisted throughout the day, with Fariz Khalilli, Ph.D. in history and chairman of the "MIRAS" Public Union for the Study of Cultural Heritage, inaugurating the event and outlining the day's agenda. During his address, Rufat Jan, chairman of the Union of Turkish Associations of Belgium, expressed optimism that these training sessions would shed light on the future paths of the youth.

As part of the project, on October 30, the young individuals explored the "Yurd of Tarakama" in the village of Gageli, Agsu district, and the medieval archeological excavation in the city of Agsu, and observed the national game "Chilingagac". On October 31, they listened to the comprehensive presentation of Khayyam Orujov, an instructor of the Azerbaijan State Academy of Physical Education and Sports, about "National Sports Games" in Ganja and visted Ganja's must-see places. On November 1, they visited the enchanting Goygol National Park, a beautiful pearl of our nature and the German houses within.

The one-week program concluded with the participants receiving Youthpass certificates.

**İqtisadiyyat və Menecment fakültəsinin tələbələri ERASMUS+ PICASP layihəsi çərçivəsində beynəlxalq tədbirdə**

2023-cü il 28 oktyabr-3 noyabr tarixində ERASMUS+ PICASP (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kursları) layihəsinin maliyyə dəstəyi ilə "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi və Belçika Türk Dərnəkləri Birliyi tərəfindən idman, sağlam həyat, motivasiya kimi mövzularda Belçika və Azərbaycandan olan gənclər üçün maarifləndirici təlimlər, eyni zamanda ölkəmizlə tanışlıq turları keçirilib.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri Şahin Əliyev, Fərid Babayev, Ziya Əlizadə, Cəlal Yaqub və Çingiz Ağayev bu təlimdə fəal iştirak ediblər.

Oktyabrın 29-da hər iki ölkəni təmsil edən gənclər təlim prosesində Türkiyə Cümhuriyyətinin 100 illiyini qeyd edərək, İstiqlal marşını birlikdə ifa ediblər. Bayram əhval-ruhiyyəsi gün boyu davam edib. Tədbiri "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli açaraq, günün proqramını elan edib. Belçika Türk Dərnəkləri Birliyinin sədri Rüfət Can öz çıxışında bu təlimlərin gənclərimizin gələcək həyat yollarına işıq saçacağına ümid bəslədiyini ifadə edib.

Layihə çərçivəsində gənclər oktyabrın 30-da Ağsu rayonunun Gəgəli kəndində "Tərəkəmə yurdu" və Ağsu şəhərində orta əsr arxeoloji qazıntı ilə tanış olaraq, "Çilingağac" milli oyununu izləyiblər. Oktyabrın 31-də isə gənclər Gəncə şəhərində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllimi Xəyyam Orucovun "Milli İdman Oyunları" haqqında geniş təqdimatını dinləyiblər və Gəncənin gəzməli-görməli yerləri ilə tanış olublar. Noyabrın 1-də isə onlar təbiətimizin gözəl incisi olan Göygöl Milli Parkına baş çəkiblər və buradakı alman evlərinə tamaşa ediblər.

Bir həftəlik proqramın nəticəsi olaraq tələbələr Youthpass sertifikatı ilə təltif olunublar.




ŞƏHİDLƏR


şuşa




Anathar
kelime
İletişime
Bal Kat




UTRECHT
UNIVERSITY